

# MÖHTƏŞƏM 20 İL 2003 2023

# Möhtəşəm uğurlar, böyük zəfərlər dövrü

## Prezident İlham Əliyev 20 illik fəaliyyəti dövründə bütün vədlərini gerçəyə çevirib



Azərbaycana rəhbərlik etdiyi 2003-2023-cü illər ərzində xalqımıza ard-arda misilsiz qələbələr yaşadan Prezident İlham Əliyev vətənpərvər fəaliyyəti, bənzərsiz siyasi liderliyi sayəsində 20 illik qısa bir zamanda ölkəmiz adına möhtəşəm nailiyyətlər, böyük zəfərlər qazanıb.

Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin həmsədrliyi ilə Gülüstan sarayında "Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili" mövzusunda keçirilən konfransda ölkəmizin qazandığı nailiyyətlərə və tarixi qələbələrə bir daha nəzər yetirilib və ötən illərdə əldə edilən uğurlardan bəhs edilib.

### 3630 məktəb, 760-dək səhiyyə müəssisəsi

Konfransda çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, "Güclü iqtisadiyyat ən önəmli şərtdir" deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) real ifadədə 3,6 dəfə artıb. Bu, son iki onillikdə qlobal miqyasda əldə olunan ən yaxşı iqtisadi nailiyyətlərdən biridir.

Prezident İlham Əliyevin diqqət və qayğısı, eyni zamanda Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə ölkə üzrə təhsil, səhiyyə və mədəniyyət ocaqlarının tikintisi və yenidən qurulması sahəsində irimiqyaslı layihələr həyata keçirilib. Əli Əsədov diqqətə çatdırıb ki, son 20 ildə paytaxtda və regionlarda 3630 məktəb, 760-dək səhiyyə müəssisəsi tikilib və ya əsaslı təmir olunub. Əhalinin sosial müdafiəsi, xüsusilə ən həssas kateqoriyadan olan insanların sosial təminat məsələləri, bütövlükdə əhalinin sosial-iqtisadi rifah halının yaxşılaşdırılması Prezidentin daim diqqət mərkəzində olub. Hər il dövlət büdcəsi tərtib edilərkən büdcənin sosialyönümlü olmasına xüsusi diqqət yetirilib.

Prezident İlham Əliyevin dövlət başçısı kimi 20 illik fəaliyyəti dövründə xalqa verdiyi bütün vədləri uğurla yerinə yetirdiyini vurğulayan Baş nazir söyləyib ki, bu gün qalib xalqın nümayəndələri, qalib dövlətin vətəndaşlarıyıq: "44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və birgünlük lokal xarakterli antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük qayıdışa açmışdır".

Əli Əsədov onu da qeyd edib ki, qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait ayrılıb. Böyük Qayıdışa dair I Dövlət Proqramı qəbul edilib və uğurla icra olunur. Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə azad edilmiş torpaqlarımızı addım-addım, qarış-qarış gəzərək möhtəşəm quruculuq işlərinə bilavasitə başçılıq edir.

### Azərbaycan xalqı öz gələcəyini yalnız Prezident İlham Əliyevə etibar edib

Konfransda çıxış edən Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev bildirib ki, ötən 20 il ölkəmizin qarşısında duran strateji hədəflərə nail olunması, cərəyan edən proseslərin, baş vermiş hadisələrin zənginliyi, ən əsası əldə edilmiş nəticələr baxımından müstəsna əhəmiyyət kəsb edən və çoxəsrlik milli dövlətçiliyimizin ən parlaq səhifəsinə çevrilmiş yeni bir mərhələdir: "Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-2023-cü illər çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi düşmüş, əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış, amma öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olmuşdur. Məhz buna görədir ki, ötən dövr ərzində keçirilmiş 4 prezident seçkisində Azərbaycan xalqı öz gələcəyini yalnız Prezident İlham Əliyevə etibar edib. Xalqımız hər zaman Prezident İlham Əliyevə dəstək olur, ətrafında sıx birləşərək ardınca irəliyə doğru addımlayır".

Samir Nuriyev qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan uzun illər iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olub.

Prezident Administrasiyasının rəhbərinin sözlərinə görə, nə Ermənistan rəhbərliyi, nə də Qarabağdakı hərbi xuntanın başçıları ehtimal belə etmirdilər ki, gün gələcək, Azərbaycan təkcə Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Şuşada deyil, eləcə də Xankəndidə, Ağdərədə, Xocalıda, Xocavənddə nəzarətini bərpa edəcək, xalqımıza qarşı cinayətlər törətmiş separatçılar isə Azərbaycan məhkəməsi qarşısında cavab verməli olacaqlar: "2023-cü il sentyabrın 20-də 24 saatdan az vaxt çəkən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan Silahlı Qüvvələrinin həmin ərazidəki bütün tör-töküntülərini, hərbi infrastrukturunu sıradan çıxardı və hərbi xuntanı ağ bayraq qaldırmağa məcbur etdi. Bundan sonra separatçılara özünü buraxmaq barədə qərar qəbul etməkdən başqa çıxış yolu qalmadı".

Samir Nuriyev əlavə edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal xarakterli antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi.

### Qazanılan bütün bu zəfərlərdə İlham Əliyevin imzası var

Azərbaycan xalqı olaraq son 20 illik zaman ərzində uzun, bir o qədər də məsuliyyətli yol qət edərək Azərbaycan tarixində bənzərinə rastlanmayan qələbə günlərinə qovuşmuşuq.

Prezident İlham Əliyevin rəhbərliyi altında cəmi 20 il ərzində siyasi, iqtisadi, sosial, hərbi, ümumiyyətlə, bütün sahələr üzrə hərtərəfli inkişaf edərək Cənubi Qafqazın lider ölkəsi və dünyada söz sahibi olan Azərbaycan işğala məruz qalan ölkədən Zəfər ölkəsinə çevrilib, yüz minlərlə keçmiş məcburi köçkünün vətəndə qəribçiliyinə son qoyulub. Vaxtilə bir həyat nişanəsi belə tapmaq mümkün olmayan Qarabağ və Şərqi Zəngəzur indi cənnətməkana çevrilir və Böyük qayıdış karvanları ilə yurda dönən doğma sakinlərini qucaq açır.

Ən ümdəsi Prezident İlham Əliyev onilliklərin ardından suverenliyimizi tam bərpa edərək ana yurdumuzun bütün bölgələrində üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımızı dalğalandırıb.

Altında Prezident İlham Əliyevin imzası olan bütün bu uğurlar, nailiyyətlər, qələbələr, zəfərlər isə müstəqil və qüdrətli Azərbaycanı, qalib Azərbaycan xalqını daha uca zirvələrə daşıyacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*